fəziləti ilə bizlərə axirətdə sevinənlərdən olmağımıza bir vasitə olsun.

*****

Sonda Uca Allahdan istəyimiz budur ki, bizi Öz sevdiyi və razı qaldığı əməlləri yerinə yetirməyə müvəffəq etsin! Amin!!!

**QEYD:** Əlinizdəki kitab insan əməyinin bəhrəsidir və ona görə də orada xətaların olması labüddür. Hər hansı bir xəta ilə üzləşdikdə və ya mövzu ilə bağlı daha maraqlı təklifiniz olarsa, ramil.soltanov@gmail.com elektron ünvanına yazmanızı xahiş edirik.



## Mərhəmətli, Rəhmli Allahın adı ilə!

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

*"Ey iman gətirənlər! Allahdan layiqincə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"* [1]

*"Ey insanlar! Sizi tək bir şəxsdən xəlq edən, ondan da zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə biri-birimizdən cürbəcür şeylər istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edəndir! "* [2]

*"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! Əgər belə etsəniz Allah əməllərinizi islah edər*

[1] Ali İmran surəsi, 102.
[2] ən-Nisə surəsi, 1.

*və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar "* [1]

## Namazın mənası

Əziz qardaş və bacılarım! Allahın biz insanlara vacib buyurduğu ibadətlərin arasında namaz, ən önəmli yerlərdən birini tutur. Əbəs yerə el arasında "Namaz ibadətin qəlbidir!" deməyiblər. Namazın hər rüknunun bir qiyməti vardır. Məhz namaz vasitəsilə qul, onu yaradanın qarşısında səcdə etmək kimi ən gözəl rükunu yerinə yetirir. Namaz qılaraq bəndə öz Rəbbinə yaxınlaşmaq şansı qazanır. Sanki hər gün müəyyən edilmiş vaxtlarda Allahı ilə ünsiyyətdə olur. Elə bu ünsiyyətin sevinci, mənəvi təmizliyi, rahatlığı o insanın bütün gününə sirayət edir. Namaz qıldıqca insan ruhən bir sakitliyə, günahlardan təmizlənməyə nail olur. Bu ibadətin mənəviyyatımıza təsirini heç nə ilə müqayisə etmək mümkün deyil.

Namaz sözü ərəb dilində dua deməkdir. Uca Allah buyurur: *"Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün*

[1] əl-Əhzab surəsi, 70-71.



dünyanı, həm də axirəti qazana bilərlər. Uca Allah buyurur: *"Onların arxasınca namazı buraxıb şəhvətə uyan bir nəsil gəldi. Onlar ziyana uğrayacaqlar"* [1]

Namaz qılmayan insanların Quran ayələrində təsvir edilən aqibətlərini heç kim arzulamaz. Ona görə də nə qədər ibadət etməyə fürsətimiz var, ondan istifadə etməliyik. Bir günü belə boş-boşuna keçirmək olmaz. Əli ibn Əbu Talib (r.a) öz tələbələrinə həmişə nəsihət edib deyərdi: "Həqiqətən, dünya gəldi-gedərdi və o, artıq geridə qalmışdır. Axirət isə qarşıda hər kəsi gözləməkdədir. İkisinin də öz oğulları (qəlbən ona bağlı olan adamlar) vardır. Siz dünya oğullarından deyil, axirət oğullarından olun! Bu gün bir iş görürsünüz, amma sorğu-sual olunmursunuz. Sabah isə sorğu-sual olunacaq və heç bir iş görə bilməyəcəksiniz."[2]

Ölümün nə zaman gələcəyi bəlli deyil. Dünya həyatının aldadıcı gözəlliyinə əbədi həyatımızı qurban verməyə dəyməz. İbadətlərin ən önəmlisi olan namazı sevək və yerinə yetirək ki, o da öz

[1] Məryəm surəsi, 59

[2] Camiul-Ulum vəl Hikəm, ibn Rəcəb.

*onlar səcdəyə dəvət olunacaqları, lakin buna qadir olmayacaqları gün – onların gözləri zəlil görkəm alacaq, özlərini də zillət bürüyəcəkdir. Hərçənd ki, onlar dünyada sağ-salamat ikən səcdəyə dəvət olunurdular."*[1]

Həmçinin yalnız namaz qılmaqla kifayətlənməli deyil, Allahın razı qalacağı yaxşı əməlləri çoxaltmalıyıq. Haqq-hesab gününü bir an olsun unutmamalı, ona səmimi qəlbdən iman gətirməliyik. Qurani-Kərimdə belə buyurulur: *"Hər bir kəs qazandığının girovuna çevrilir, sağ tərəf sahiblərindən başqa. Onlar Cənnət bağlarında bir-birlərindən soruşacaqlar – günahkarlar barəsində. Sizi Səqərə salan nədir? Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbı da yedizdirməzdik. Batil sözlər danışanlarla birlikdə biz də danışardıq, və Haqq-hesab gününü yalan sayardıq."*[2]

Çox acınacaqlı bir haldır ki, bəzən cəmiyyətimizdə namaz qılmağa başlayıb sonra onu müxtəlif bəhanələri səbəb gətirərək tərk edənlərə də rast gəlirik. Nə qədər ki, Allahın tövbə qapıları onlara açıqdır, deməli gec deyil. Tərk etdikləri bu gözəl ibadətə tövbə edib yenidən qovuşmaqla həm

[1] əl-Qələm surəsi, 42, 43
[2] əl-Muddəssir surəsi, 38-46



*dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir. Allah Eşidəndir, Biləndir".*[1]

Namaz sözü Allaha şamil edildikdə gözəl tərif, məxluqata şamil edildikdə isə dua və ibadət mənasını verir. Uca Allah buyurur: *"Doğrudan da, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla salamlayın".*[2]

Uca Allah bu ayədə "xeyir dua" dedikdə ərəb dilindəki namaz sözünü istifadə etmişdir.

Namazın dində (şərii) mənasına gəldikdə isə; məlum olan *xüsusi* kəlmələri ifadə etmək və hərəkətləri yerinə yetirməklə, təkbirlə başlayıb, təslimlə qurtaran, niyyət ilə olunan ibadətə deyilir.

Namaz kəlməsi bu ibadətin Allah tərəfindən vacib buyurulduğu vaxta qədər hər bir duaya, sonra isə yalnız namaza deyilməyə başlandı.

## Namazın hökmü

Namaz qılmaq, hər bir həddi-buluğa çatmış, ağlı başında olan adama vacibdir. Təəssüf ki, cəmiyyətimizdə "hələ tezdir, cavanam", "qocalanda

[1] ət-Tövbə surəsi, 103
[2] əl-Əhzab surəsi, 56

namaza başlayaram", "qırx yaşından sonra namaz qılacağam" kimi fikirlər bəzi insanları namaz kimi gözəl ibadətdən yayındırır. İnsanlar bu ibadətin sanki yalnız qocalar üçün fərz olduğu qənaətinə gəliblər. Buna Quran və sünnə dəlalət edir. Uca Allah buyurur: *"Halbuki onlara ancaq Allaha – dini məhz Ona məxsus edərək həniflər kimi – ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də budur!"* [1]. Başqa ayədə deyilir: *"Namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir"*.[2]

Gün ərzində beş vaxt namaz qılmağın vacibliyi isə Peyğəmbərdən ﷺ varid olan mötəbər hədislərdə öz əksini tapmışdır. Peyğəmbər ﷺ Muaz ibn Cəbəli (r.a) Yəmənə göndərərkən ona belə demişdir: "Sən Kitab əhlinin yanına gedirsən. Onları Allahdan başqa tanrı olmadığına və mənim Allahın elçisi olduğuma şahidlik etməyə dəvət et! Əgər bunu qəbul etsələr, onlara bildir ki, Allah, gün ərzində beş vaxt namaz qılmağı vacib buyurmuşdur."[3]

[1] əl-Beyyinə surəsi, 5
[2] ən-Nisə surəsi, 103
[3] Buxari (8), Müslim (16)



*maqlarını dişləyərək deyəcəkdir: "Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım!"*[1]

Lakin bu həyat hər birimizə bir dəfə verilir. Anadan olduğumuz gündən sanki geriyə sayım başlayır. Hər açılan sabahla öz əbədi həyatımıza bir addım daha yaxınlaşırıq. Odur ki, Uca Allahın bu ayəsini daim xatırlayın və düşünün: *"Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir!" Əzab sizə gəlməmişdən öncə Rəbbinizə üz tutun və Ona itaət edin. Sonra sizə heç bir kömək olunmaz. Əzab sizə fərqinə varmadığınız bir halda qəflətən gəlməmişdən əvvəl Rəbbinizdən sizə endirilən ən gözəl Sözə tabe olun!"*[2]

Deməli ilk sorğuya çəkiləcəyimiz ibadət olan namazı bir gün olsun belə ləngitmədən qılmalı onun fəzilətindən özümüzü məhrum etməməliyik. Əks halda vəziyyətimiz çox acınacaqlı olar. Allah bu haqda belə buyurur: *"Baldır açılacağı və*

[1] əl-Furqan, 27, 28
[2] əz-Zumər, 53-55

ribatdır."[1] Hədisdə qeyd olunmuş "ribat" kəlməsi Allah yolunda keşik çəkmək deməkdir.

## Namaz qılmayanın aqibəti

Yaradılış etibarı ilə fitrətində ibadət etmək hissi olan Adəm oğlu təəssüf ki, çox vaxt şeytanın vəsvəsələrinə, dünyanın yalançı və müvəqqəti bər-bəzəyinə, öz nəfsi və şəhvani istəklərinə uyub ibadətin qəlbi olan namazdan özünü məhrum edir. Nə itirdiyinin, hansı yolda olduğunun fərqinə varmır. Ayılanda isə artıq gec olur. Geriyə yol olmadığını dərk edir. Əsl həqiqətlə üz-üzə, göz-gözə qalır. Nə qaçacaq bir yer, nə də bir sığınacaq tapa bilmir. Yalnız ölümü daddıqdan sonra başlayan axirət həyatının əbədi sakinlərindən biri olur. Ancaq axirət həyatını bu müvəqqəti həyata dəyişdiyinin acısını hiss edərək yenidən dünyaya dönmək, imtahandan üzüağ çıxmaq üçün yalvarır. Uca Allah onların halını vəsf edərək deyir: *"Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm"..*[2] Bir başqa ayədə isə buyurur: *"Həmin gün zalım kimsə bar-*

[1] Muslim (251)

[2] əl-Muminun surəsi , 99-100



Başqa bir hədisdə namazın İslamda beş əsasından biri olduğu qeyd olunur. İbn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İslam beş əsas üzərində qurulmuşdur: Allahdan başqa ilahın olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq".[1]

## Namazın İslamda yeri

Namazın İslamda əzəmətli və çox mühüm bir yeri vardır. Onun yerini başqa heç bir ibadətlə doldurmaq mümkün deyil. Gəlin, ətrafımıza nəzər salaq – insanlar sanki bir darıxmaq xəstəliyinə tutulublar. Hamı darıxır! Səbəbini soruşduqda isə, çox vaxt cavabı belə olur "Heç özüm də bilmirəm". Hazırda psixoloqlar insanların mənəviyyatını sarsıdan bu darıxmaq xəstəliyinin çarəsini araşdırırlar. Ruhən hiss etdikləri boşluq onlarda heç bir şeyə ehtiyacları olmadıqları halda da darıxmağa, nəyinsə çatmadığı qənaətinə gəlməyə məcbur edir. Elə bu üzdən də intiharlar baş verir,

[1] Əbu Davud 1420, Albani bu hədisi səhihləşdirmişdir.

özünü gərəksiz, tək, kimsəsiz hiss edənlərin sayı durmadan artır. Ruhi aclığını doydura bilməyən insan oğlu çarəni yanlış yerlərdə axtarır. Məhz namaz belə insanların qəlbində olan xəstəlikləri müalicə edir. Bu gün müsəlmanların nəinki həyat tərzlərində, hətta əxlaqlarında belə xətalara yol vermələrinin başlıca səbəbi namazlarının lazımı şəkildə olmamağıdır. Çünki *"Namaz çirkin və yaramaz işlərdən çəkindirir"*.[1]

Namazın İslamda çox mühüm yeri olduğunu sübut edən bəzi dəlilərə nəzər salaq:

1. **Namaz dinin dirəyidir.**

Dayağı möhkəm olan şey sarsılmaz. Muaz ibn Cəbəl (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ buyurmuşdur: "Hər bir işin əsası İslam, dayağı namaz və zirvəsi isə cihaddır".[2]

**2. Qiyamət günü ilk soruşulacaq əməldir.**

Hansı insan bu sorğu-sualdan üzü ağ çıxsa, o biri əməllərinin sorğu-sualından da yaxşı çıxmağa Allah ona kömək edər. Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü hər bir bəndədən soruşulacaq ilk əməl

[1] əl-Ənkəbut surəsi, 45

[2] Tirmizi 2616, Albani hədisi səhihləşdirmişdir.



**9. İki namaz arasındakı günahlar bağışlanar.**

İki namaz arasında olan müddətdə qazanılan kiçik günahların namaz vasitəsi ilə silinməsi onun fəzilətinə dəlalət edir. Osman ibn Affan (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Gözəl tərzdə dəstəmaz alıb namazını qılan elə bir müsəlman yoxdur ki, Allah onun namazları arasında olan günahlarını bağışlamış olmasın".[1]

**10. Namazı gözləmək Allah yolunda keşik çəkmək kimidir.**

Allah qatında namazın fəziləti o qədər böyükdür ki, hətta növbəti namazı gözləməyin özü insana böyük savab qazandırır. Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Sizə elə bir şey öyrədimmi ki, Allah onun sayəsində həm günahlarınızı bağışlasın, həm də savabınızı artırsın? Səhabələr: "Öyrət, ya Rəsulallah!" - dedilər. Peyğəmbər ﷺ buyurdu: "Soyuq havada olsa belə dəstəmazı tam şəkildə alıb mütəmadi olaraq məscidə getmək, namazı bitirdikdən sonra növbəti namazı gözləmək, sizin üçün ribatdır,

[1] Muslim (227)

Ayədən açıq-aydın görünür ki, insanı Cənnətdən uzaqlaşdırıb Cəhənnəmə salan ən böyük amillərdən biri namaz qılmamaqdır.

**7. Namaz qılmaq üçün məscidə getmək günahları silir və savabları artırır.**

Ən vacib ibadət olan namazı qılmaq üçün məscidə tərəf atılan hər addım ilə bir günahın silinməsi və bir savabın yazılması bu ibadəti daha da fəzilətli edir. Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim evində dəstəmaz alıb, vacib buyurulan namazı qılmaq məqsədi ilə məscidlərin birinə gedərsə, atdığı addımlardan hər biri onun bir günahını silər digəri isə savabını artırar."[1]

**8. Allah, məscidə gedən bəndəsi üçün Cənnətdə ziyafət hazırlayar.**

Məsciddə qılınan namaz Allah qatında daha fəzilətli olduğundan, Uca Allah qılınan hər namaz üçün Cənnətdə ziyafət hazırlayar. Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ buyurmuşdur: "Kim namaz qılmaq üçün məscidə getsə, Allah ona Cənnətdə ziyafət verər."[2]

---

[1] Muslim (666)

[2] Buxari (622) və Muslim (669)



namaz olacaq. Namazına doğru-düzgün əməl etmişsə nicat tapacaq, əks təqdirdə isə ziyana uğrayacaqdır".[1]

**3. Dindən ən son unudulan şey namaz olacaq.**

Əbu Uməmə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanların ilk itirdiyi şey əmanət olacaqdır. Axırda isə namazdan başqa bir şey qalmayacaq və elə namaz qılanlar olacaqdır ki, onların əməllərində heç bir fayda olmayacaqdır".[2]

**4. Peyğəmbərin ﷺ ümmətinə etdiyi son vəsiyyətidir.**

Hər bir insan son olaraq ən vacib şeyləri vəsiyyət edər. Ummu Sələmə (r.a) rəvayət edir ki, "Namaz qılın! Namaz qılın! Kölələrinizlə gözəl rəftar edin" sözü Peyğəmbərimizin son vəsiyyətlərindən biri olmuşdur.[3]

**5. Uca Allahın namaz qılanları, habelə bunu ailəsinə əmr edənləri tərifləməsi.**

Gözəl əməllər hər zaman tərifə layiq olmuşdur. Uca Allah buyurur: *"Kitabda İsmaili də xatırla! Həqiqətən, o öz vədinə sadiq idi. O bir elçi və peyğəmbər*

---

[1] Tabarani 532, Albani səhihləşdirmişdir.

[2] Tabarani 4425, Albani səhihləşdirmişdir.

[3] Əhməd (6-290, 311, 321) Albani səhihləşdirmişdir.

*idi. O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı".*[1]

**6. Uca Allahın namaz qılmayanları və ya onu tənbəlliklə qılanları pisləməsi.**

Gözəl əməlləri tərk edən kəs hər zaman tənbeh olunmuşlar. Uca Allah bu xüsusda buyurur: *"Onların arxasınca namazı buraxıb şəhvətə uyan bir nəsil gəldi. Onlar ziyana uğrayacaqlar.*[2] Başqa bir ayədə buyurur: *"Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər".*[3]

**7. İlk dəfə namazın gün ərzində əlli dəfə vacib buyurulması.**

Namazın ilk olaraq gün ərzində əlli dəfə vacib buyurulması onun Allah dərgahında nə qədər mühüm bir ibadət olmasından xəbər verir. Hətta Uca Allah namazın vaxtlarını gün ərzində beş dəfəyə endirsə də savabının isə əlli namazın savabı qədər saxlaması buna bir daha sübutdur.

[1] Məryəm surəsi, 54, 55
[2] Məryəm surəsi, 59
[3] ən-Nisə surəsi , 142



Belələri, Qiyamət günü Qarun, Firon, Haman və Ubey ibn Xələf ilə bərabər həşr olunarlar."[1]

**5. Allah bununla namaz sahibinin dərəcəsini artırır.**

Uca Allahın namazı kamil şəkildə qılan hər bir müsəlmanın dərəcəsini artırması və günahlarını silməsi həmin müsəlman üçün böyük lütfdür. Sovbən (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ ona demişdir: "Allaha çoxlu-çoxlu ibadət et! Qılacağın elə bir səcdə olmaz ki, Allah onunla sənin dərəcəni artırmasın və günahlarından birini silmiş olmasın."[2]

**6. Cənnətə daxil olmaq üçün ən böyük səbəbdir.**

Sözsüz ki, namazın ən əsas fəziləti onun Cənnətə daxil olmaq üçün ən böyük səbəb olmasıdır. Uca Allah buyurur: *"Onlar Cənnət bağlarında bir-birlərindən soruşacaqlar – günahkarlar barəsində. Sizi Səqərə salan nədir? Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik".*[3]

[1] Əhməd (2-169) Dərimi (2-301)
[2] Muslim (488)
[3] Muddəssir surəsi, 40-43

**3. Səhvləri və günahları silib aparır.**

Səhvsiz və günahsız insan yoxdur. Allahın bizə olan mərhəmətidir ki, qıldığımız namaz günahlarımızı silib aparır. Cabir ibn Abdullah (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bir deyin görüm, sizlərdən birinin qapısının önündən çay axsa, o da hər gün bu çayda beş dəfə yuyunsa, onun bədənində olan çirkabdan bir şey qalarmı? Beş vaxt qılınan namazların məsəli də buna bənzəyir. Belə ki, Allah bu namazlarla günahları silib aparır!"[1]

**4. Namaz, onu qılan adam üçün həm bu dünyada, həm də axirətdə nurdur**.

Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ bir dəfə namaz haqqında danışarkən belə dedi: "Kim namazlarını vaxtlı-vaxtında qılsa, Qiyamət günü bu namazlar onun üçün bir nur, bir dəlil-sübut olar, həm də ona uğur qazandırar. Namazlara səhlənkar yanaşıb onları vaxtlı-vaxtında qılmazsa, bu onun üçün nə bir nur, nə də bir dəlil-sübut olar, üstəlik o, ziyana uğrayar.

[1] Buxari 1/197



**8. Uca Allah nicat tapanların əməllərini zikr edərkən namaz ilə başlaması və namaz ilə bitirməsi namazın mühümlüyünü göstərir.**

Uca Allah buyurur: *"Möminlər, həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər, o kəslər ki, sözbazlıqdan qaçırlar, o kəslər ki, zəkat verirlər, o kəslər ki, öz cinsi orqanlarını həmişə qoruyurlar, zövcələri və sahib olduqları cariyələr istisnadır. Onlar buna görə heç qınanmazlar. Bundan artığına can atanlarsa həddi aşanlardır. O kəslər ki, əmanətlərini və vədlərini qoruyurlar. O kəslər ki, namazlarını öz vaxtlarında qılırlar".*[1]

**9. Uca Allahın Peyğəmbərə ﷺ, onun ardınca gedənlərə və ailələrinə namazı əmr etməsi.**

Allahın özünə ən yaxın bəndəsi olan Muhəmməd peyğəmbərə ﷺ namazı əmr etməsi onun vacibliyinin ən yüksək səviyyədə olduğunu təsdiq edir. Allah buyurur: *"Ailənə namaz qılmağı əmr et, özün də onu səbirlə yerinə yetir. Biz səndən ruzi istəmirik, əksinə sənə ruzi verən Bizik. Gözəl aqibət təqvaya bağlıdır".*[2]

Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Övladlarınız yeddi yaşına

[1] əl-Muminun surəsi, 1-9

[2] Taha surəsi, 132

çatanda onlara namaz qılmağı öyrədin. On yaşına çatanda isə onları buna görə tənbeh edin və yataqlarını ayırın".[1]

**10. Unutduqda və ya yatıb qaldıqda belə sonradan namazın qılınmasının əmr olunması onun əhəmiyyətini bildirir.**

Ənəs ibn Malik (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Namaz qılmağı unutmuş və ya yatıb qalmış müsəlmanın kəffarəsi yadına düşən kimi onu qılmasıdır".[2]

## Namazın İslamda xüsusiyyətləri

Namaz digər yaxşı əməllərdən bir çox xüsusiyyətlərinə görə fərqlənir. Bu özəlliklər onun qiymətini daha da artırır. Elə buna görə də insanların əksəriyyəti namaz qılmağa başladıqdan sonra "kaş mən namaza daha əvvəl başlayardım" deyə heyfsilənirlər. Heç bir şeyə bənzəməyən bu hissi dadan insan onun ləzzətini qəlbində daşıyır və sırf Allah rizası üçün etdiyi bu təkrarsız ibadətin zövqünü yaşayır. Namazın əsas xüsusiyyətlərindən bəziləri bunlardır:

[1] Əbu Davud 495, Albani səhihləşdirmişdir
[2] Buxari 598, Muslim 684



Namazın fəzilətləri bitməz-tükənməzdir. Ən mühümləri isə bunlardır:

**1. Pis və murdar işlərdən çəkindirir.**

Gündə beş vaxt namaz qılmaq insana Allah qorxusunu və Qiyamət gününü xatırladır. Bu da insanı pis və çirkin əməllərdən çəkindirir. Uca Allah buyurur: *"Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl! Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir."*[1]

**2. Şəhadətdən sonra ən əfzəl əməldir.**

Şəhadət gətirib İslam dinini qəbul etdikdən sonra, namaz qılmaq ən əfzəl əməl sayılır. Abdullah ibn Məsud (r.a) rəvayət edir ki, mən Peyğəmbərdən ﷺ soruşdum: "Qüdrətli və əzəmətli Allahın ən çox xoşuna gələn *ən yaxşı əməl* hansıdır?" O buyurdu: "Vaxtlı-vaxtında qılınan namaz". Mən dedim: "Sonra hansıdır?" O buyurdu: "Valideynlərin qayğısına qalmaq." Mən yenə soruşdum: "Bəs sonra hansıdır?" O buyurdu: "Allah yolunda cihad etmək."[2]

[1] əl-Ənkebut surəsi, 45
[2] Buxari (7524), Muslim (85)

*Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!"*[1] Allah Muhəmməd peyğəmbərə ﷺ buyurub demişdir: *"Ailənə namaz qılmağı əmr et, özün də onu səbirlə yerinə yetir. Biz səndən ruzi istəmirik, əksinə sənə ruzi verən Bizik. Gözəl aqibət təqvaya bağlıdır".*[2]

## Namazın fəziləti

Namaz təkcə insanın mənəvi boşluğunu dolduran bir ibadət deyildir. Onun əhatə etdiyi mövzulara toxunmaq üçün bir kitab yazmaq təbii ki, yetərli deyildir. Ancaq biz çalışırıq ki, onun ən mühüm amillərini sizin diqqətinizə çatdıraq. Bu amillərdən ən başlıcası da namazın fəzilətidir.

Namazın fəzilətini başa düşüb onu qılmamaq qeyri-mümkündür. Namaz öz fəziləti ilə sanki gözəgörünməz bir sipər çəkib insanı pisliklərdən və günahlara meyl etməkdən uzaqlaşdırır. Müsəlmanın vaxtlı-vaxtında, həm də Allaha müti olaraq qıldığı namaz onun günahlardan təmizlənməsi üçün ən gözəl vasitədir. Hər bir bəndəni Rəbbinə yaxınlaşdıran namaz sanki bir nur olub onun arzuladığı Cənnətə düşməsinə səbəbdir.

[1] Taha surəsi, 14
[2] Taha surəsi 132



**1. Uca Allah namazı iman adlandırır.**

Allah buyurur: *"Beləliklə Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun. Biz, əvvəl üz tutduğun qibləni ancaq ona görə təyin etdik ki, peyğəmbərin ardınca gedənləri üz döndərənlərdən fərqləndirək. Bu, Allahın doğru yola yönəltdiyi şəxslərdən başqa hamısına ağır gəldi. Allah sizin imanınızı puç etməz. Həqiqətən də, Allah insanlara qarşı Şəfqətlidir, Rəhmlidir".*[1]

**2. İslamın başqa ibadətlərindən fərqli olaraq namazın Allah tərəfindən ayrıca zikr olunması.**

Hər zaman mühüm şeylər ayrıca olaraq qeyd olunur. Allah buyurur: *"Biz Öz hökmümüzlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər".*[2] Namaz xeyir işlərə aid olsa da belə Allah xeyirli işləri qeyd etdikdən sonra namazı bir daha vurğulayır.

**3. Quranda bir çox ibadətlərlə yanaşı qeyd edilməsi**.

Uca Allah buyurur: *"Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!"*[3] Başqa ayədə

[1] əl-Bəqərə surəsi, 143
[2] əl-Ənbiya surəsi, 73
[3] əl-Bəqərə surəsi, 43

deyilir: *"Elə isə Rəbbin üçün namaz qıl və qurban kəs!"*[1] Başqa bir ayədə deyilir: *"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha məxsusdur!"*[2] Quranda bu mənada ayələr çoxdur.

**4. Allah, hər bir halda bu ibadəti yerinə yetirməyi vacib buyurmuşdur.**

Bu ibadət başqa ibadətlərdən fərqli olaraq hər bir halda yerinə yetirilməlidir. İstər cihadda, istər səfərdə, istərsə də başqa hallarda bu ibadəti yerinə yetirmək vacibdir. Hətta ayaq üstə namazı qılmağa gücü çatmayanların onu oturaraq, buna da gücü yetməyənlərin isə uzanmış vəziyyətdə qılmalarının vacibliyi onun tərk edilməz bir ibadət olduğunu bir daha təsdiq edir.

**5. Başqa ibadətlərdən fərqli olaraq daha kamil halda yerinə yetirilməlidir.**

Təmizlənmək, gözəl paltar geyinmək, qibləyə tərəf yönəlmək və s. bu kimi şərtlər başqa ibadətlərdə tələb olunmur. Namazın kamil halda yerinə yetirilməsinin vacibliyi onun Allah qatında ən yüksək yer tutduğuna dəlalət edir.

[1] əl-Kövsar surəsi, 2

[2] əl-Ənam surəsi, 162



**6. Namaz qıldıqda hər bir bədən üzvündən istifadə etmək.**

Qəlb, dil və digər bədən üzvlərindən istifadə etmək başqa ibadətlərin heç birində yoxdur. Namazın cismən, qəlbən və ruhən edilən bir ibadət olması insanı onu Yaradana daha da yaxınlaşdırır ki, bu da onu digər ibadətlərdən daha üstün edir.

**7. Bu ibadəti yerinə yetirdikdə başqa işlə məşğul olmamaq.**

Namaz qılarkən yemək, içmək, gülmək və s. lazımsız hərəkətlər etmək, hətta namazdan ayrı bir şey barədə fikirləşmək olmaz. Bütün bunlar namazın ciddi bir ibadət olduğundan xəbər verir.

**8. Allahın ⚜öndərdiyi hər bir dində vacib buyurulması.**

Elə bir Peyğəmbər gəlməyib ki, öz qövmünə namaz qılmağı əmr etməsin. Namazın bu xüsusiyyəti onu digər ibadətlərdən daha üstün edir. İbrahim (a.s) belə dua etmişdir: *"Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə!"*[1] Allah Musaya (ə.s) belə buyurmuşdur: *"Həqiqətən, Mən Allaham. Məndən başqa heç bir ilah yoxdur. Mənə*

[1] İbarhim surəsi, 40